İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Aprel 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# “BANKLAR HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUNDA DƏYİŞİKLİKLƏR




“Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 569-VQD nömrəli Qanununun tətbiqi və “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 mart tarixli 42 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 12 aprel 2017-ci il tarixli müvafiq Fərman imzalanmışdır.

“Banklar haqqında” Qanunda 07 aprel 2017-ci il tarixli dəyişikliklərə əsasən fond, körpü-bank, sistem əhəmiyyətli bank, investor, sağlam aktiv, rezolyusiya, ödəmə qabiliyyətini itirmiş bank kimi yeni anlayışları müəyyən edilmişdir. Sözügedən Qanuna əsasən, ödəmə qabiliyyətini itirmiş banka müvəqqəti inzibatçının təyin edilməsi və həmin inzibatçının bankın idarə edilməsi ilə bağlı səlahiyyətləri təsbit olunur. Dəyişikliklərə uyğun olaraq, müvəqqəti inzibatçının fəaliyyətinə nəzarətin maliyyə bazarlarına nəzarət orqanı tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə, dəyişikliklərə əsasən, məhkəmə Fondu (“Əmanətlərin sığortalanması” haqqında qanuna əsasən yaradılmış hüquqi şəxs) məcburi ləğv olunan bankın ləğvedicisi qismində təyin etməkdədir. Bununla yanaşı, Fond ləğvedici funksiyalarını müqavilə əsasında hüquqi və ya fiziki şəxslərə həvalə edə bilər.

Ümumi olaraq, təsbit edilmiş dəyişikliklər aşağıdakılarla bağlı qaydaları müəyyən edir:

- Ödəmə qabiliyyətini itirmiş bankın rezolyusiyası ilə bağlı tədbirlər planı;
- Ödəmə qabiliyyətini itirmiş bankın aktiv və öhdəliklərinin alıcı banka köçürülməsi;
- Ödəmə qabiliyyətini itirmiş bankın satılması və sağlam banka qoşulması;
- Körpü bankın yaradılması və satışının həyata keçirilməsi;
- Sistem əhəmiyyətli bankların ödəmə qabiliyyətinin bərpasında dövlətin iştirakı;
- Bankın öhdəliklərinin könüllü restrukturizasiyası;
- Bankın məcburi ləğvi;
- Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən ləğvedicinin fəaliyyəti üzərində nəzarət.

Sözügedən Qanunun qüvvəyə minməsi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən imzalanmış 12 aprel 2017-ci il tarixli müvafiq Fərman həmin Qanunun effektiv tətbiqini təmin etmək məqsədi daşıyaraq özündə aidiyyəti qurumlar üzrə verilmiş bir sıra tapşırıqları ehtiva etməkdədir.

www.iqtisadiislahat.org

www.ereforms.org

www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat